# AzAK P005

## Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası proseduru

## 1. Məqsəd

Bu prosedurun məqsədi beynəlxalq standartlara əsasən uyğunluğu qiymətləndirən qurumların (UQQ) akkreditasiya ilə bağlı müraciətlərinin AzAK tərəfindən qəbul edilməsi, araşdırılması, qiymətləndirilməsi və prosesin nəticələrinin izahı, uyğunluğu qiymətləndirən qurumların ilkin akkreditasiya, illik qiymətləndirmə, təkrar akkreditasiya barədə məlumatlandırılmasıdır. Bundan əlavə, məqsəd akkreditasiya attestatının qüvvədə olma müddətinin dayandırılması, akkreditasiya sahəsinin məhdudlaşdırılması, akkreditasiya attestatının ləğv edilməsi (geri çağırılması) və akkreditasiya sahəsində dəyişikliklərin edilməsinə dair üsul və qaydaları təsvir etməkdir.

## 2. Əhatə dairəsi

Bu prosedur UQQ-lərin müraciətinə əsasən ilkin akkreditasiya, izləmə qiymətləndirməsi, akkreditasiya qərarının verilməsi, illik qiymətləndirmə, təkrar akkreditasiya ilə bağlı müraciət, qiymətləndirmə, qərarın verilməsi proseslərinin ümumi prinsiplərini və qaydalarını əhatə edir. Bundan əlavə, prosedur AzAK tərəfindən akkreditasiya edilmiş qurumların akkreditasiya attestatlarının qüvvədə olma müddətlərinin qismən və ya tamamilə dayandırılması, akkreditasiya sahəsinin məhdudlaşdırılması, akkreditasiya attestatının ləğv edilməsi (geri çağırılması), akkreditasiya attestatının qüvvədə olma müddətinin bərpası, akkreditasiya sahəsində dəyişikliklərin edilməsi, akkreditasiya attestatı ləğv edilmiş qurumların yenidən müraciət etmələri ilə bağlı prosesləri əhatə edir.

## 3. Termin və təriflər

Bu prosedurda ISO/IEC 17000, ISO/IEC 17011 standartlarında və yerli qanunvericilik aktlarında qeyd olunmuş, o cümlədən aşağıda sadalanan termin və təriflərdən istifadə edilmişdir:

**Struktur bölmə** - AzAK-ın təşkilati strukturuna daxil olan rəhbərlik, şöbələr, sektorlar.

**Akkreditasiya üzrə şöbə**- AzAK-ın İnspeksiya və sertifikatlaşdırma üzrə orqanların akkreditasiyası şöbəsi və Laboratoriyaların akkreditasiyası şöbəsi.

**Texniki komitə** - müəyyən akkreditasiya sahəsi üzrə lazımi təhsilə, təcrübəyə, texniki səriştəyə malik, müvafiq sektoru yaxşı bilən, qərəzsizlik prinsipinə riayət edən ekspertlərdən ibarət olan, uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya prosesində ortaya çıxan mübahisəli məqamların, sahələr üzrə yaranan texniki məsələlərin aydınlaşdırılması, həllin izahının verilməsi, tövsiyyələrin verilməsi, eləcə də AzAK-ın inkişafı və fəaliyyətinin tənzimlənməsi üçün texniki dəstək xidmətləri göstərmək məqsədi ilə yaradılmış komitə.

**Sənəd** - AzAK-ın keyfiyyət sistemi, akkreditasiya fəaliyyətləri və ya idarəetmə sistemlərini tənzimləmək üçün hazırlanmış və/yaxud istifadə edilən hər cür kağız, elektron və s. daşıyıcılarda saxlanılan və təkrar istehsal keyfiyyətinə malik olan məlumat.

**Düzəldici fəaliyyət** - mövcud uyğunsuzluqların, qüsurların və ya digər arzuolunmaz halların təkrar baş verməsinin qarşısını almaq, həmin halların yaranması səbəblərini aradan qaldırmaq üçün görülən tədbirlər.

**İllik qiymətləndirmə** - təkrar akkreditasiya istisna olmaqla, akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumların akkreditasiya tələblərini yerinə yetirməyə davam etdiyinə dair nəzarətin həyata keçirilməsi fəaliyyəti.

**İzləmə qiymətləndirilməsi** - UQQ-nin qiymətləndirilməsi zamanı AzAK tərəfindən aşkar olunmuş uyğunsuzluqların aradan qaldırılması ilə bağlı UQQ-nin həyata keçirdiyi tədbirlərin effektivliyini təsdiq etmək üçün və AzAK-ın zəruri hesab etdiyi digər hallarda həyata keçirilən qiymətləndirmə fəaliyyəti.

**Təkrar akkreditasiya –** akkreditasiya tsiklinin yenilənməsi məqsədilə həyata keçirilən qiymətləndirmə fəaliyyəti

**Validasiya auditi** - UQQ tərəfindən aparılan qiymətləndirmələrin müvafiq akkreditasiya və sertifikatlaşdırma sxeminə uyğun olaraq həyata keçirildiyini müəyyən etmək üçün AzAK-ın qiymətləndirmə komissiyası tərəfindən UQQ-nin müştərisinin auditi.

**Səriştəlilik sınağı** - yoxlanılanın fəaliyyətinin əvvəlcədən müəyyən edilmiş meyarlar əsasında laboratoriyadaxili və laboratoriyalararası müqayisələr vasitəsilə qiymətləndirilməsi prosesidir.

**Laboratoriyalararası müqayisə** - eyni və ya bənzər nümunələr üzrə ölçmələrin və ya sınaqların iki və ya daha çox laboratoriya tərəfindən əvvəlcədən müəyyən edilmiş şərtlərə əsasən təşkili, icrası və qiymətləndirilməsi.

**Yerləşmə yeri** - uyğunluğu qiymətləndirmə fəaliyyətləri və bunlarla əlaqəli fəaliyyətlərin həyata keçirildiyi ünvanlar (filiallar, önəmli fəaliyyətlərin həyata keçirildiyi ünvanlar, mobil və səyyar obyektlər, virtual sahələr, nümayəndəliklər və s.).

**Ölçmə auditi** – Ölçmə auditi obyektindən istifadə etməklə UQQ-nin nəzarəti altında müəyyən texniki sahədə müəssisənin səriştəsinin qiymətləndirilməsidir. Bu metod ümumiyyətlə laboratoriyalarda tətbiq olunsa da, digər uyğunluğun qiymətləndirilməsi orqanlarının texniki səriştəsinin qiymətləndirilməsi proseslərində də istifadə oluna bilər.

**Önəmli fəaliyyətlər** - siyasətin işlənib hazırlanması, proses və/və ya prosedurun təkmilləşdirilməsi və zərurət olduqda müqavilənin nəzərdən keçirilməsi, uyğunluğun qiymətləndirilməsi fəaliyyətinin nəticələrinin nəzərdən keçirilməsi, təsdiqi, qərar vermə və s. bu kimi proseslərdir.

**Uyğunsuzluq** - akkreditasiya tələblərinin yerinə yetirilməməsi.

**Kiçik uyğunsuzluq** - uyğunluğun qiymətləndirilməsi fəaliyyətinin nəticəsinə birbaşa təsir etməyən uyğunsuzluq.

**Ciddi uyğunsuzluq** - uyğunluğun qiymətləndirilməsi fəaliyyətinin nəticəsinə birbaşa təsir edən uyğunsuzluq.

**Virtual sahə** - internetdə və ya müxtəlif kommunikasiya mühitlərində prosesləri idarə etməyə imkan verən sahə, məsələn bulud texnologiyası və s.

**Kurator** - akkreditasiya prosesinin gedişinə, icrasına nəzarət etməli olan akkreditasiya üzrə müvafiq şöbə tərəfindən səlahiyyətləndirilən, akkreditasiya fəaliyyətlərinin hər mərhələsində akkreditasiya üçün müraciət etmiş və ya akkreditasiya edilmiş qurumla əlaqə yaradan, həmin akkreditasiya prosesinin sənədləşməsinə, fayl sisteminin arxivləşdirilməsinə, əlaqələndirici kimi bütün prosesə görə məsuliyyət daşıyan AzAK əməkdaşı.

**Qərarverici heyət** - akkreditasiya sahəsinin həcmi və mürəkkəbliyindən asılı olaraq minimum 2 nəfərdən- akkreditasiya üzrə müvafiq şöbənin rəhbəri, direktorun müavini və ya direktordan ibarət olmaqla təşkil edilir. Qərarverici heyətin tərkibi qiymətləndirmə komissiyasının tərkibi ilə eyni ola bilməz və AzAK-ın P004 “Akkreditasiya prosesində iştirak edən əməkdaşlara səlahiyyətin verilməsi və qiymətləndirici/texniki ekspert bazasının yaradılması proseduru”na əsasən müəyyən edilir.

## 4. Tətbiq

Akkreditasiya prosesi aşağıdakı mərhələlərdən ibarətdir:

- Müraciət;
- Qiymətləndirmədən əvvəlki hazırlıq;
- Akkreditasiya qiymətləndirməsi;
- Qiymətləndirmədən sonra həyata keçirilən təhlillər (izləmə qiymətləndirməsi də daxil olmaqla);
- Qərar qəbulu;
- İllik qiymətləndirmə;
- Təkrar akkreditasiya.

Akkreditasiya prosesi zamanı aşağıda sadalanan qiymətləndirmə üsullarından biri və ya bir neçəsindən istifadə olunur. Akkreditasiya prosesi zamanı hansı üsulun hansı mərhələdə istifadə edilməsi bu prosedurun içərisində müəyyən edilmişdir:

- Sənədlərin təhlili;
- Qeydlərin təhlili;
- Yerində qiymətləndirmə (şahid qiymətləndirməsi və ofisdə qiymətləndirmə);
- Səriştəlilik sınaqları və laboratoriyalararası müqayisə nəticələrinin nəzərdən keçirilməsi;
- Plandan kənar qiymətləndirmə;
- Müsahibə;
- Məsafədən (kameral) qiymətləndirmə;
- Ölçmə auditləri;
- Təsdiq (validasiya) auditi.

## 4.1. Müraciət

### 4.1.1. Müraciətə əlavə olunmalı sənədlər

Uyğunluğu qiymətləndirən qurum akkreditasiyanın aparılması üçün akkreditasiya orqanına müraciət etmək istədiyi halda AzAK-ın rəsmi internet səhifəsindən məlumatları əldə edərək kağız üzərində yazılı və ya elektron formada müraciət edə bilər. Müraciətə əlavə olunmalı sənədlərin siyahısı, müraciət forması (AzAK F005-01, AzAK F005-15, AzAK F005-16, AzAK F005-17, AzAK F005-18) və akkreditasiya sahələrinin formaları (AzAK F005-02, AzAK F005-03, AzAK F005-04, AzAK F005-05, AzAK F005-06, AzAK F005-07) AzAK-ın rəsmi internet səhifəsində yerləşdirilmişdir.

Akkreditasiya olunmaq istəyən UQQ-lər AzAK-ın rəsmi internet səhifəsində yerləşdirilmiş ictimaiyyətə açıq məlumatlardan istifadə etməklə müraciətini tamamlayıb AzAK-a təqdim edir.

UQQ-lər müraciət formasını dolduran zaman yerləşmə yerləri - uyğunluğu qiymətləndirmə fəaliyyətləri və bunlarla əlaqəli fəaliyyətlərin həyata keçirildiyi ünvanlar (filial, önəmli fəaliyyətlərin həyata keçirildiyi ünvanlar, mobil, səyyar laboratoriyalar, virtual sahələr, nümayəndəlik və s.) barədə məlumatları mütləq qeyd etməlidirlər.

### 4.1.2. Akkreditasiya sahəsi

Akkreditasiya üçün müraciət etmiş UQQ fəaliyyət sahəsinə uyğun olaraq AzAK-ın rəsmi internet səhifəsində yerləşdirilmiş akkreditasiya sahələrinin formalarından, müvafiq təlimatlardan istifadə etməklə hazırladığı akkreditasiya sahəsini müraciətinə əlavə etməlidir. UQQ akkreditasiya üçün müraciət etmədən öncə öz fəaliyyətinin akkreditasiya sahəsində aydın şəkildə əks etdirilməsini təmin etmək üçün AzAK-ın akkreditasiya üzrə müvafiq şöbələrinə dəstək üçün müraciət edə bilər.

### 4.1.3. Müraciətin araşdırılması

Qeydə alınmış və akkreditasiya üzrə müvafiq şöbəyə yönəldilmiş akkreditasiya müraciətinə əsasən həmin şöbənin müdiri AzAK F005-09 formasını doldurur, bu forma ilə birlikdə müraciət prosesə görə məsul şəxsə - kuratora təqdim edilir, kurator müraciət əsasında və akkreditasiya tsikli ərzində AzAK F005-19 formasını doldurur.

Kurator sənədlərin tamlığını 10 (on) iş günündən çox olmayan müddətdə yoxlayır. Nəzərdə tutulmuş sənədlər və məlumatlar uyğunluğu qiymətləndirən qurum tərəfindən təqdim olunmadıqda, AzAK tərəfindən müraciətə baxılma müddətinin axımının dayandırılması haqqında qərar qəbul edilir (MAD 1). Həmin qərarda UQQ-dən sənədlərin və ya məlumatların təqdim edilməsi tələb olunur və UQQ tərəfindən təqdim edilməli sənədlərin, məlumatların siyahısı və təqdimolunma müddəti göstərilir. Əlavə sənədlərin və ya məlumatların təqdim edilməsi üçün təyin edilən müddət 20 (iyirmi) iş günündən çox olmamalıdır.

Qeyd edilən müddət ərzində sənədlər və məlumatlar AzAK-a təqdim edildikdə müddət axımı bərpa edilir və bu barədə UQQ-yə məlumat verilir. UQQ müəyyən edilmiş müddət ərzində sənədləri və məlumatları təqdim etməzsə, müraciət və sənədlər baxılmadan müraciət etmiş quruma qaytarılır.

Təqdim edilən müraciət əsasında 3 (üç) iş günü müddətində hazırlanmış akkreditasiya müqaviləsi (AzAK F005-08) ilkin ödəniş sənədləri və müddət axımının 10 (on) iş günündən çox olmayan müddətə dayandırılması barədə qərar (MAD 2) qəbul olunaraq UQQ-yə təqdim olunur.

Yalnız müqavilə imzalandıqdan və ilkin ödəniş edildikdən sonra müddət axımının bərpa olunması barədə qərar (MAB 2) qəbul oluna bilər. UQQ müqaviləni imzalamaqdan və ilkin

ödənişi etməkdən imtina edərsə, müraciət və sənədlər baxılmadan müraciət etmiş quruma qaytarılır.

Müddət axımı bərpa olunduqdan sonra kurator müvafiq akkreditasiya şöbəsinin müdirinin nəzarəti ilə həmin müraciətlə bağlı resursları 10 (on) iş günü ərzində nəzərdən keçirir. Müraciət aşağıdakı meyarlara görə nəzərdən keçirilir:

- Müraciətə əlavə edilmiş akkreditasiya sahəsinin layihəsinə uyğun akkreditasiyanın həyata keçirilməsinin mümkünlüyü (qurumun bu akkreditasiya sahəsi ilə EA, IAF və ILAC-a üzv qurumlar tərəfindən akkreditasiya olunub-olunmaması da araşdırlıaraq nəzərə alınmalıdır);
- Yaradılacaq qiymətləndirmə komissiyasının işinin və qərar vermə prosesinin müəyyən edilən müddətlərdə yerinə yetirilmə imkanı;
- Müraciət edən qurumun səriştəliliyinin AzAK-ın prosedur və qaydalarına uyğun olaraq qiymətləndirilməsi və qərar vermə üçün kifayət qədər insan resursunun olub-olmaması;
- Müraciət edən qurumun statusunun və iş fəaliyyətinin milli və beynəlxalq səviyyədə tanınmış və AzAK tərəfindən qəbul edilmiş siyasət və prinsiplərə uyğunluğu;
- AzAK-ın UQQ-nin akkreditasiya üçün müraciət etdiyi sahədə akkreditasiya xidməti göstərib-göstərmədiyi, qarşılıqlı tanınma barədə razılaşmanın olub-olmaması və s.

İlkin akkreditasiya, akkreditasiya sahəsində dəyişiklik və təkrar akkreditasiya ilə bağlı müraciət əsasında qiymətləndirmə aparılan zaman AzAK F005-10 "Müraciətin nəzərdən keçirilməsi forması" kurator tərəfindən doldurulur. Müraciətin araşdırılması zamanı qurumun akkreditasiya sahəsinin AzAK-ın rəsmi internet səhifəsində yerləşdirilmiş formalara uyğunluğu yoxlanılır.

Müraciətin araşdırılması zamanı kuratorun hər hansı bir tərəddüdü yaranarsa, akkreditasiya üzrə müvafiq şöbənin müdiri, ehtiyac olduqda isə texniki komitənin, qiymətləndirici/texniki ekspertlərin və ya müvafiq maraqlı tərəflərin rəyi alına bilər. Bu halda müddət axımının 20 (iyirmi) iş günündən çox olmayan müddətə dayandırılması barədə qərar qəbul edilə bilər (MAD 4).

Təqdim olunmuş müraciət və müraciətə əlavə olunmuş sənədlər üzrə araşdırmanın nəticəsində AzAK-ın akkreditasiya prosesini davam etdirmək üçün resurslarının olmadığı və müraciətə əlavə edilən akkreditasiya sahəsinin akkreditasiyaya cəlb edilə bilməməsi müəyyən edildikdə müraciət və sənədlər baxılmadan müraciət etmiş quruma qaytarılır. Müraciətin araşdırılmasının nəticələri qənaətbəxş olduğu təqdirdə müddət axımının bərpa olunması barədə qərar qəbul olunur, akkreditasiya prosesi davam etdirilir.

Müraciətin araşdırılması və ya ilkin akkreditasiya qiymətləndirməsi prosesində UQQ-nin saxtakarlıq etdiyinə dair qeydlər və ya sübutlar aşkar edildiyi halda, UQQ-nin qəsdən yanlış məlumatlar təqdim etməsi və ya bəzi məlumatları gizlətməsi halında akkreditasiya üçün müraciət və sənədlər baxılmadan müraciət etmiş quruma qaytarılır.

UQQ-nin sorğusuna əsasən ona akkreditasiya prosesinin istənilən mərhələsində prosesin gedişi barədə məlumat verilə bilər.

Təqdim olunan sənədlərdə və məlumatlarda çatışmazlıqlar aşkar edilmədikdə, qiymətləndirmə prosesi başlanılır.

Qiymətləndirmənin müəyyən edilmiş müddət ərzində keçirilməsi mümkün olmadıqda UQQ bu barədə məlumatlandırılır.

### 4.2. Qiymətləndirmədən əvvəlki hazırlıq

AzAK ilkin tanışlıq məqsədilə ziyarət həyata keçirmir.

4.2.1. Qiymətləndirmə komissiyasının yaradılması.

Müracətin araşdırılmasının nəticəsi qənaətbəxş olduğu halda Kurator qiymətləndirmə komissiyasının yaradılması prosesinə başlayır.

İlkin akkreditasiyanın ilkin qiymətləndirməsi zamanı qiymətləndirmə komissiyası bir baş qiymətləndirici və akkreditasiya sahəsinin layihəsinə görə bir və ya daha çox sayda qiymətləndirici, texniki ekspertlərdən ibarət olur. Bundan əlavə AzAK-ın qərarı ilə qiymətləndirici olmağa namizədlər və ya ekspertlər, müşahidəçi və kurator da qiymətləndirmə komissiyasının tərkibinə daxil edilə bilər. Qiymətləndirmə komissiyasının üzvləri seçilərkən onların AzAK-ın qiymətləndirici/texniki ekspert bazasındakı ixtisas sahələri, əlçatanlığı, qiymətləndiriləcək UQQ ilə yarana biləcək maraq toqquşması və digər meyarlar nəzərə alınır.

Qiymətləndirmə zamanı komissiya sədrinin seçimi, qiymətləndirmə növünə (ilkin akkreditasiya, illik qiymətləndirmə, əlavə qiymətləndirmə və s.) və tətbiq ediləcək qiymətləndirmə üsullarına görə fərqlənə bilər.

Kurator uyğunluğun qiymətləndirilməsi fəaliyyətinin həyata keçirildiyi fərqli yerləri və önəmli fəaliyyətlərin icra edildiyi yerlərlə bağlı məlumatları təhlil edib təsdiq edir. Qiymətləndirmə komissiyasının yaradılması və qiymətləndirmə üçün sərf olunacaq müddətin müəyyən edilməsi zamanı bu məsələlər nəzərə alınır.

Qərəzsizliyi təmin etmək üçün hər bir qiymətləndirmədən öncə komissiya üzvlərinə “Məxfilik və qərəzsizlik bəyannaməsi” AzAK F005-21 təqdim olunur və onlardan formanın imzalanması tələb olunur.

Kurator akkreditasiya üzrə şöbə müdirlərinin təklifləri əsasında qiymətləndirmə komissiyasını təşkil edir, komissiyanın təklif edilən tərkibi rəhbərliklə müzakirə edildikdən sonra, qərar verilərsə, qərar direktor tərəfindən imzalanır. AzAK tərəfindən xidmət haqqı hesablanır, protokol və hesab-faktura hazırlanır. Qiymətləndirmə komissiyasının yaradılması barədə qərarın surəti, xidmət haqqı ilə bağlı müvafiq sənədlər və müddət axımının 10 (on) iş günündən çox olmayan müddətə dayandırılması barədə qərar qəbul olunaraq (MAD 5) UQQ-yə təqdim olunur. Qiymətləndirmə komissiyasının yaradılması barədə qərarda qiymətləndirmənin başlandığı tarix, qiymətləndirmə komissiyasının üzvləri, müşahidəçilərin, habelə onların mənsub olduğu təşkilatın (təşkilatların) adları barədə məlumat və akkreditasiya üçün müraciət etmiş şəxsin konkret əsaslar göstərməklə komissiyanın üzvlərinə 5 (beş) iş günü müddətində etiraz etmək hüququ göstərilir. Etiraz olduğu halda AzAK tərəfindən etirazın əsaslı olub-olmaması araşdırılır və etirazın təmin olunması və ya təmin olunmaması haqqında qərar qəbul edilir. Etiraz təmin olunduğu halda komissiyanın tərkibində dəyişiklik edilir və bu barədə dərhal müraciət etmiş şəxsə məlumat verilir. Müraciət etmiş şəxsin komissiyanın tərkibinə dair əsaslandırılmış etirazı daxil olmadıqda və xidmət haqqı ödənildikdə müddət axımının bərpası barədə qərar (MAB 5) qəbul olunaraq UQQ-yə təqdim olunur. Komissiya qiymətləndirmə fəaliyyətinə başlayır. UQQ-nin əsaslı səbəblər göstərməklə müddətin uzadılması barədə rəsmi müraciəti əsasında müddət ən çoxu 3 (üç) ay uzadıla bilər. Müəyyən edilmiş müddət ərzində xidmət haqqı ödənilməzsə, müraciət və sənədlər baxılmadan müraciət etmiş quruma qaytarılır.

4.2.2. Sənədlərin və qeydlərin qiymətləndirmə komissiyası tərəfindən təhlili və qiymətləndirilməsi

UQQ akkreditasiyasının həyata keçirilməsinə görə xidmət haqqını ödədikdən sonra müddət axımının bərpası barədə qərar qəbul olunur, UQQ-nin sənədləri qiymətləndirmə komissiyasına təqdim edilir.

Sənədlər və qeydlər UQQ-nin yerləşmə yerində həyata keçiriləcək qiymətləndirmədən əvvəl komissiya tərəfindən təhlil edilir.

Sənədlərin və qeydlərin təhlilindən sonra komissiya üzvləri tərəfindən AzAK F005-13

"Sənədlərin və qeydlərin təhlili forması" 3 (üç) iş günü ərzində doldurulur.

Sənədlərin və qeydlərin təhlilinin nəticəsində uyğunsuzluq aşkar edilərsə, vəya təhlil edilməsi üçün tələb olunan sənədlər UQQ tərəfindən AzAK-a təqdim edilməzsə, komissiya AzAK F005-13 formasında müvafiq qeydlər aparır və AzAK tərəfindən müraciətə baxılma müddətinin axımının dayandırılması haqqında qərar qəbul edilir (MAD 6). Həmin qərarda uyğunluğu qiymətləndirən qurumdan sənədlərin və ya məlumatların təqdim edilməsi, uyğunsuzluqların aradan qaldırılması tələb olunur və uyğunluğu qiymətləndirən qurum tərəfindən təqdim edilməli sənədlərin, məlumatların siyahısı və təqdimolunma müddəti göstərilir. Müddət axımı UQQ ilə razılaşdırılmış müddətə (3 (üç) aydan çox olmamaqla) dayandırılır. UQQ tələb edilən sənədləri və məlumatları müəyyən edilmiş müddət ərzində AzAK-a təqdim edərsə, müddət axımı bərpa olunur və təqdim edilmiş sənədlər və məlumatlar araşdırılır. Təqdim edilmiş sənədlər və məlumatlar uyğunsuzluğun aradan qaldırılması üçün kifayət etməzsə və ya UQQ tələb edilən sənədləri təqdim edə bilməzsə, akkreditasiyadan imtina barədə qərar qəbul edilərək UQQ-yə təqdim edilir.

Sənədlərin və qeydlərin təhlilinin nəticəsi qənaətbəxş olarsa və ya uyğunsuzluq aşkar edilməzsə, qurumun yerləşdiyi yerdə uyğunluğun qiymətləndirilməsi fəaliyyəti sahəsinə aid olan müvafiq standartlarda, texniki reqlamentlərdə və digər texniki normativ hüquqi aktlarda nəzərdə tutulmuş texniki tələblərə (texniki meyarlara) uyğunluğu qiymətləndirilir.

## 4.3. Qiymətləndirmə mərhələsi

### 4.3.1. Qiymətləndirmə barədə plan

UQQ-nin sənəd və qeydlərinin təhlilindən sonra kurator komissiya ilə əlaqə yaradır və komissiya sədri ilə birgə qiymətləndirmə planını hazırlayır.

Hazırlanan AzAK F005-14 "Qiymətləndirmə planı" və planın dəqiqləşdirilməsi üçün müraciətə baxılma müddətinin axımının 3 (üç) aydan çox olmayan müddətə dayandırılması haqqında qərar (MAD 7) UQQ-yə təqdim edilir.

UQQ müəyyən edilmiş müddət ərzində də plana münasibət bildirməzsə, və ya planla razı olmadığını bildirərsə, və ya qiymətləndirməyə şərait yaratmazsa, AzAk tərəfindən akkreditasiyadan imtina barədə qərar qəbul edilərək UQQ-yə təqdim edilir. UQQ plana razılığını bildirərsə və qiymətləndirməyə şərait yaradarsa, müddət axımının bərpası barədə qərar (MAB 7) qəbul edilərək UQQ-yə təqdim edilir. Sonra komissiya sədrinin rəhbərliyi ilə yerində qiymətləndirmə üçün hazırlıqlar başlayır.

### 4.3.2. Yerində qiymətləndirmə

Qiymətləndirmə barədə plan UQQ tərəfindən qəbul edildikdən sonra qiymətləndirmə planında müəyyən olunan təqvimə görə yerində qiymətləndirmə həyata keçirilir.

Yerində qiymətləndirmənin həyata keçirilməsi üçün UQQ-nin idarəetmə sistemi ən azı 3 ay fəaliyyət göstərməli, daxili audit və rəhbərlik tərəfindən təhlil həyata keçirilmiş olmalıdır.

Yerində qiymətləndirmənin məqsədi UQQ-nin akkreditasiya üçün müraciətində göstərdiyi sahədə idarəetmə sistemi və texniki səriştəsinin akkreditasiya üçün əsas olan beynəlxalq standartlar, müvafiq meyarları özündə əks etdirən sənədlərin (EA, IAF, ILAC və AzAK-ın rəhbəredici sənədləri, AB-nin direktivləri, qanunvericilik və s.) tələblərinə cavab verib-verməmədiyini müəyyən etmək, sistemin davamlılığı haqqında məlumat toplamaqdır və tətbiqini nəzərdən keçirməkdir.

Yerində qiymətləndirmə şahid qiymətləndirməsi və ofisdə qiymətləndirmə olmaqla iki hissədən ibarət olur. Ehtiyac olduqda digər qiymətləndirmə növlərindən də istifadə oluna bilər.

Ofis qiymətləndirməsi zamanı UQQ-nin sənədlərin təhlili, qeydlərin təhlili, səriştəlilik

sınaqları və laboratoriyalararası müqayisə nəticələrinin nəzərdən keçirilməsi, müsahibə və s. qiymətləndirmə üsullarından istifadə olunur.

UQQ mərkəzi ofisdən başqa digər yerlərdə də fəaliyyət göstərirsə, ilkin akkreditasiya zamanı bu yerlər də qiymətləndirilir. UQQ-nin önəmli fəaliyyətləri həyata keçirdiyi bütün yerləşmə yerləri ilkin akkreditasiya zamanı qiymətləndirilir. Digər fəaliyyətlərin icra edildiyi yerləşmə yerləri risk analizinin nəticələrinə əsasən nümunə seçmə yolu ilə seçilir və qiymətləndirilir.

Şahid və ofis qiymətləndirmələrində qiymətləndiriləcək uyğunluğun qiymətləndirilməsi fəaliyyətləri və şahidlik ediləcək uyğunluğun qiymətləndirilməsi fəaliyyətləri zamanı fəaliyyəti müşahidə ediləcək UQQ personalının seçilməsi risk faktorlarına əsasən həyata keçirilir.

Komissiya sədrinin rəhbərliyi ilə keçirilən açılış iclasında müraciət edən qurumun rəhbərliyi və məsul şəxsləri ilə birlikdə komissiya üzvləri iştirak edirlər. Açılış iclası zamanı yerində qiymətləndirmənin məqsədi, həcmi, qiymətləndirmə planı, iştirakçılarla bağlı məlumat verilir, məxfilik, təhlükəsizlik və digər mövzular UQQ-nin rəhbərliyi ilə müzakirə edilir, AzAK F005-20 Açılış iclasının protokolu forması iclas iştirakçıları tərəfindən imzalanır.

Akkreditasiya edilən UQQ malın (xidmətin, işin) və ya idarəetmə sistemlərinin sertifikatlaşdırılmasını aparan qurumdursa, bu qurumun həyata keçirdiyi sertifikatlaşdırma fəaliyyəti AzAK-ın qiymətləndirmə komissiyası tərəfindən müşahidə edilir, qurumun iş üslubu və işçilərinin səriştəliliyi barədə məlumatlar əldə edilir. Komissiyanın üzvləri akkreditasiya prosesi zamanı qiymətləndirilən qurumun (malın (xidmətin, işin) və ya idarəetmə sistemlərinin sertifikatlaşdırılmasını aparan qurumun) daha əvvəl sertifikat verdiyi təsərrüfat subyektlərində təhlil apara bilərlər.

Ehtiyac olarsa, idarəetmə sistemini sertifikatlaşdıran akkreditasiya olunmuş qurum tərəfindən sertifikatlaşdırılmış təsərrüfat subyektlərinin idarəetmə sistemlərinin keyfiyyətini qiymətləndirməklə sertifikatlaşdırma qurumunun iş üslubu və işçilərinin səriştəliliyi haqqında məlumat əldə etmək olar.

Personalı sertifikatlaşdıran qurumları qiymətləndirən zaman sertifikatlaşdırma imtahanı və qiymətləndirməsi də daxil olmaqla müvafiq qurumun müxtəlif təsərrüfat subyektlərində həyata keçirdiyi sertifikatlaşdırma fəaliyyəti komissiya üzvləri tərəfindən müşahidə edilir, qurumun iş üslubunun və sertifikatlaşdırma fəaliyyətində iştirak edən personalın səriştəsi barədə məlumat əldə edilir.

Komissiyanın üzvləri akkreditasiya prosesində qiymətləndirmə zamanı qurum tərəfindən daha əvvəl sertifikatlaşdırılmış personalla görüşlər təşkil edə bilərlər.

UQQ malın (xidmətin, işin) sertifikatlaşdırılmasını aparan qurumdursa və əvvəllər akkreditasiya sahəsinə uyğun sertifikatlaşdırma aparmamışdırsa, UQQ-nin simulativ sertifikatlaşdırma prosesinin təşkil edilməsi yolu ilə onun bu sahədə səriştəliliyi qiymətləndirilir.

Laboratoriyalar və inspeksiya orqanlarının qiymətləndirmələrində iştirak edən qiymətləndiricilər və texniki ekspertlər müraciətə əlavə olunmuş akkreditasiya sahəsinin layihəsində qeyd olunmuş metodlar və həmin metodları tətbiq edən işçilərin səriştəliliyini müəyyən etmək üçün müvafiq işçilərlə müsahibə aparır, işçilər tərəfindən həmin metodların necə tətbiq edildiyini əyani şəkildə izləyirlər. Qiymətləndirmə komisiyası akkreditasiya sahəsinin qiymətləndirilməsini həmin sahədən seçmə üsulla götürülmüş uyğunluğun qiymətləndirilməsi fəaliyyətinin qiymətləndirilməsi yolu ilə həyata keçirə bilər. Qiymətləndirmə, akkreditasiya sahəsi ilə əhatə olunan fəaliyyətləri həyata keçirmək üçün yer və işçi heyətini əhatə etməlidir. Əsas şərt kifayət sayda metodun seçilməsi və qiymətləndirilməsidir. Bundan əlavə laboratoriyalar AzAK P011 “Səriştəlilik sınaqları və laboratoriyalararası müqayisə proqramları ilə bağlı siyasət sənədi”ndə müəyyən olunmuş meyarlar çərçivəsində səriştəlilik sınaqları və ya laboratoriyalararası müqayisə proqramlarında iştirak etməlidirlər.

Qiymətləndirmə zamanı aşkar olunan uyğunsuzluqlar sübutlarla əsaslandırılmalı və

AzAK F005-22 formasında aydın şəkildə qeyd olunmalıdır. Laboratoriyaların qiymətləndirilməsi zamanı əlavə olaraq AzAK F005-35 formasından da istifadə edilməlidir. Belə ki, qiymətləndirilən hər bir metod üzrə qeydlər AzAK F005-35 formasına daxil edilməlidir. Bu zaman nəzərə alınmalıdır ki, AzAK F005-35 forması hər bir metod üçün ayrı doldurulmalıdır. Komissiya tapıntılarla bağlı nəticə çıxara bilməzsə, məsələyə aydınlıq gətirmək və ya dəqiqləşdirmə aparmaq üçün prosesə görə məsul şəxsə - kuratora və ya AzAK-ın müvafiq akkreditasiya şöbəsinə müraciət edə bilər.

Qiymətləndirmə başa çatmamışdan öncə komissiyanın üzvləri öz aralarında iclas keçirir, uyğunsuzluqları təsnifatlara bölür və bu uyğunsuzluqları, AzAK, ILAC, IAF və ya akkreditasiya üzrə regional təşkilatların siyasətlərinə zidd olan halları və ya AzAK tərəfindən müəyyən edilmiş şərtlərə əməl olunmadığı məqamları AzAK F005-23 "Uyğunsuzluğun qeydiyyat vərəqi"ndə qeyd edirlər. Yerində qiymətləndirmə iki gündən çox davam edərsə, açılış iclasının keçirildiyi gündən sonrakı gündən başlayaraq qapanış iclası keçirilən günə qədər qiymətləndirmənin hər günü digər formalarla yanaşı AzAK F005-36 forması da doldurulmalıdır.

Yerində qiymətləndirmə zamanı aşkar edilmiş uyğunsuzluqlar ciddi və kiçik ola bilər. Ciddi uyğunsuzluq - uyğunluğun qiymətləndirilməsi fəaliyyətinin nəticəsinə birbaşa təsir edən uyğunsuzluqdur, yəni bu uyğunsuzluq aradan qaldırılmazsa, UQQ-nin fəaliyyətini davam etdirməsi məqsədəuyğun sayılmır. Məsələn:

- UQQ-nin müvafiq avadanlığının, ölçmə vasitəsinin olmaması;
- UQQ-nin səriştəli personalının olmaması;
- Daxili auditin keçirilməməsi;
- Rəhbərlik tərəfindən təhlilin keçirilməməsi;
- Ölçmə vasitələri və ya avadanlıqların kalibrlənməsini təsdiq edən sənədlərin təqdim edilməməsi;
- Verilmiş təsdiqedici sənədlərin müəyyən edilmiş tələblərə və müddətlərə əməl edilmədən verilməsi;
- Metodların düzgün seçilməməsi, verifikasiyası və validasiyasının həyata keçirilməməsi və bununla məhdudlaşmır;

Kiçik uyğunsuzluq uyğunluğun qiymətləndirilməsi fəaliyyətinin nəticəsinə birbaşa təsir etməyən uyğunsuzluqdur, yəni bu uyğunsuzluq aradan qaldırılmazsa, Qiymətləndirmə komissiyası risk əsaslı yanaşma tətbiq edərək UQQ-nin fəaliyyətini davam etdirməsi barədə müvafiq qərar qəbul edə bilər (həmin uyğunsuzluğun UQQ-nin həyata keçirdiyi bütün fəaliyyətini əhatə etdiyi və təkrarlandığı hallar istisna olmaqla digər hallarda UQQ-nin fəaliyyətini davam etdirməsinə icazə verilə bilər), lakin növbəti qiymətləndirmə zamanı UQQ-nin bu tipli uyğunsuzluqları aradan qaldırmadığı aşkar edilərsə, həmin uyğunsuzluq davam edən ciddi uyğunsuzluq kimi qeydə alınır.

Xarakterindən asılı olmayaraq (kiçik, ciddi) bütün uyğunsuzluqlar qeydə alınmalıdır.

Yerində qiymətləndirmə zamanı ən azı 1 (bir) ciddi və ya eyni bənd üzrə ən azı 3 (üç) kiçik uyğunsuzluğun aşkar edilməsi, ilkin, təkrar akkreditasiya, akkreditasiya sahəsinində dəyişiklik prosesində müddət axımının dayandırılması, illik qiymətləndirmə prosesində isə akkreditasiya attestatının qüvvəsinin dayandırılması üçün əsasdır.

Müəyyən sahədə standartın tələblərinə uyğunluq baxımından birdən çox kiçik uyğunsuzluq aşkar edilərsə, bu uyğunsuzluqlar qiymətləndirmənin əsasını təşkil edən standartın müvafiq bəndinin tətbiqi üçün risk yaradırsa, bu uyğunsuzluqlar komissiya sədri tərəfindən ciddi uyğunsuzluq kimi qiymətləndirilir. Komissiya sədri bu uyğunsuzluğu ciddi uyğunsuzluq kimi AzAK F005-23 "Uyğunsuzluğun qeydiyyat vərəqi"nə qeyd edir.

Yerində qiymətləndirmə komissiya sədrinin rəhbərliyi ilə, UQQ-nin məsul şəxslərinin iştirakıyla keçirilən qapanış iclası ilə başa çatır və AzAK F005-24 “Qapanış iclasının protokolu” forması iştirakçılar tərəfindən imzalanır.

Aşkar olunan bütün uyğunsuzluqlar, əgər ehtiyac varsa, izləmə qiymətləndirməsi, dayandırma, ləğv və s. tövsiyələr komissiya üzvləri tərəfindən qapanış iclasında bəyan edilir. UQQ rəhbərliyi uyğunsuzluqları, tövsiyələri qəbul etdikdə müvafiq formanı imzalayır. UQQ uyğunsuzluqlar və tövsiyələrlə bağlı formanı imzalamaqdan imtina edərsə, komissiya üzvləri AzAK F005-23 “Uyğunsuzluğun qeydiyyat vərəqi”ndə müvafiq qeydlər aparılır, AzAK P010 “Şikayətlər və apellyasiya şikayətləri proseduru”na əsasən AzAK-a yazılı müraciət (sübutlarla birgə) edə biləcəyi barədə UQQ-yə məlumat verilir, proses izah olunur. UQQ-nin rəhbərliyi formanı imzalamadığı halda da müvafiq formalar komissiya üzvləri tərəfindən imzalanır və sənədləşmə başa çatır.

Yerində qiymətləndirmə zamanı aşkar edilmiş uyğunsuzluqların daxil edildiyi AzAK F005-25 forması yerində qiymətləndirmə başa çatdıqdan sonra 3 (üç) iş günü müddətində müddət axımının 3 (üç) ay müddətinə dayandırılması barədə qərarla (MAD 8) birgə UQQ-yə təqdim edilir.

UQQ 5 (beş) iş günü ərzində kök-səbəb təhlili, uyğunsuzluqların miqyası, düzəldici fəaliyyətlər və MAD 8-də qeyd olunmuş müddəti nəzərə almaqla başa çatma tarixləri də daxil olmaqla qeydlərini AzAK F005-25 formasına daxil edərək AzAK-a təqdim etməlidir.

AzAK UQQ tərəfindən AzAK F005-25 formasında qeyd olunmuş məlumatlar əsasında 5 (beş) iş günü ərzində qiymətləndirmə nəticələrinə dair qiymətləndirmə hesabatını (AzAK F005-26, AzAK F005-27, AzAK F005-28, AzAK F005-29, AzAK F005-30) tərtib edərək 5 (beş) iş günü müddətində UQQ-yə təqdim edir. Uyğunsuzluqlar müəyyən edilmiş müddət ərzində aradan qaldırılmadıqda akkreditasiyadan imtina barədə qərar qəbul edilərək UQQ-yə təqdim edilir. Müddət axımının dayandırılması barədə qərarda nəzərdə tutulmuş müddət ərzində həm düzəldici fəaliyyət həyata keçirilməli, həm də tətbiq edilmiş tədbirlərlə bağlı qeydlər qiymətləndirmə komissiyası tərəfindən təhlil edilməlidir. Uyğunsuzluq aşkar edilən zaman AzAK F005-23 formasında yenidən yerində qiymətləndirmənin zəruriliyi tövsiyə edilibsə, və ya düzəldici fəaliyyətin tətbiqi ilə bağlı qeydlərin təhlili daha uzun müddət tələb edərsə, müddət axımı 1 (bir) aydan çox olmamaqla artırıla bilər. Bu müddət ərzində izləmə qiymətləndirməsi və bununla bağlı digər zəruri tədbirlər həyata keçirilməli, sənədlər qərarverici heyətə təqdim olunmaq üçün hazır olmalıdır.

### 4.3.3. Planlaşdırılmış qiymətləndirmənin dayandırılması və ya təxirə salınması

Qiymətləndirmə aşağıdakı hallarda dayandırıla və ya təxirə salına bilər:

#### 4.3.3.1. Qiymətləndirməyə getməmişdən əvvəl

Fövqəladə vəziyyət, hüquqi statusla bağlı dəyişiklik və ya ünvan dəyişikliyi, əsas personalın işdən çıxması, şahid qiymətləndirmələrinin həyata keçiriləcəyi təsərrüfat subyektlərinin sertifikatlaşdırma üçün verdikləri müraciətləri geri götürməsi və s. kritik hallar baş verə bilər. Bu halda prosesə görə məsul şəxs - kurator UQQ-nin rəhbərliyi ilə əlaqə saxlayaraq qiymətləndirməni təxirə sala və qiymətləndirmənin tarixinin mümkün olan ən yaxın tarixə keçirilməsini təmin edə bilər. Lazım olduqda komissiya tərkibi dəyişdirilə bilər və qiymətləndirmə planı yenilənə bilər. Bu zaman müddət axımı dayandırılır və qiymətləndirmə üçün münbit şərait yaradıldığı halda müddət axımı bərpa olunur və qiymətləndirmə davam

edir.

UQQ qiymətləndirmədən əvvəl AzAK-a rəsmi şəkildə müraciət edərək akkreditasiya barədə müraciətini geri götürə, qiymətləndirmədən imtina edə bilər. Akkreditasiya müraciəti üçün ödənilmiş xidmət haqqının geri qaytarılması akkreditasiya müqaviləsinə uyğun olaraq tərəflər arasında qarşılıqlı hesablaşma yolu ilə həyata keçirilir.

4.3.3.2. Qiymətləndirmə zamanı

Qiymətləndirmə başladıqdan sonra qiymətləndirmə prosesi aşağıdakı hallarda dayandırıla bilər:

- Qiymətləndirmənin həyata keçirildiyi yerin şəraiti komissiya üzvlərinin sağlamlığına mənfi təsir edərsə və ya həyat və sağlamlıqlarına təhlükə yaradarsa;
- Aşkar edilmiş uyğunsuzluqlarla bağlı ətraf mühit və təhlükəsizlik baxımından önəmli risklər meydana gələrsə;
- UQQ qiymətləndirməyə hazır olduğunu bildirsə belə, UQQ-nin infrastruktur, personal, və sənədlər baxımından qiymətləndirməyə hazır olmadığı müəyyən edilərsə;
- Akkreditasiya üçün müraciət edilən sahədə fəaliyyətin həyata keçirilməsi ilə bağlı qeydlərin kifayət qədər olmaması və/və ya qeydlərin əldə olunmasına UQQ-nin maneə yaratması və/və ya qiymətləndirmə komissiyasının obyektiv dəlil toplaması üçün lazımi şəraitin yaradılmaması, UQQ rəhbərliyinin və ya personalının komissiya üzvlərinə qarşı həddindən artıq aqressiv davranışı, açıq-aşkar hörmətsizlik etməsi, davranışda və danışıqda etik davranış qaydalarına əməl etməməsi;
- Yerində qiymətləndirmə zamanı təhlil edilən qeydlərin əksəriyyətinin həqiqətə uyğun olmaması və ya qeydlərin qismən və ya tam olaraq qəsdən yalnış tərtib olunması, qəsdən yalnış məlumatların və qeydlərin təqdim edilməsinin aşkar edilməsi, UQQ tərəfindən qeydlərə girişin qəsdən məhdudlaşdırılması;
- Qiymətləndirmə komissiyasının üzvlərinə maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunarsa.

Səbəblər bunlarla məhdudlaşmaya bilər.

Qiymətləndirmə prosesinin dayandırılmasının səbəbi qiymətləndirmə komissiyası və UQQ rəhbərliyinin iştirakı ilə sənədləşdirilir.

Qiymətləndirmənin dayandırılmasının səbəbkarı UQQ deyilsə, qiymətləndirmə müvafiq olan digər tarixdə həyata keçirilir/başa çatdırılır.

Qiymətləndirmə UQQ-nin hazırlıq işlərini tam yerinə yetirməməsi, qiymətləndirmə zamanı əsas personalın əlçatan olmaması və/və ya digər nöqsanlar və ya UQQ-nin məsuliyyətsizliyi səbəbindən dayandırılıbsa, qiymətləndirmə tam başa çatmış hesab edilir, akkreditasiyadan imtina barədə qərar qəbull edilir və bu barədə UQQ-yə məlumat verilir.

Əgər dayandırılmış qiymətləndirmə ilkin akkreditasiya qiymətləndirməsidirsə, müraciətin qeydiyyata alındığı tarixindən etibarən bir il ərzində yeni qiymətləndirmənin keçirilməsi planlaşdırılır. Yenidən planlaşdırılan qiymətləndirmənin müddəti/həcmi dayandırılmış qiymətləndirmə zamanı uğurla yerinə yetirilən hissələr nəzərə alınmaqla azaldıla bilər. Müraciətin qeydiyyata alındığı tarixindən etibarən bir il ərzində UQQ-nin səbəb olduğu vəziyyətlərə görə yeni qiymətləndirmə keçirmək mümkün deyilsə, akkreditasiyadan imtina barədə qərar qəbull edilir və bu barədə UQQ-yə məlumat verilir.

Əgər dayandırılmış qiymətləndirmə illik qiymətləndirmədirsə, yeni illik qiymətləndirmə planlaşdırılır. Yenidən planlaşdırılan qiymətləndirmənin müddəti/həcmi dayandırılmış qiymətləndirmə zamanı uğurla yerinə yetirilən hissələr nəzərə alınmaqla azaldıla bilər. İllik qiymətləndirmələr üçün müəyyən edilmiş müddətlər keçibsə, akkreditasiya attestatının dayandırılması/ləğvi prosedurları tətbiq edilir.

Əgər dayandırılmış qiymətləndirmə təkrar akkreditasiya qiymətləndirməsidirsə, akkreditasiya haqqında qərarın qəbul edildiyi tarixdən etibarən 3 il ərzində yeni təkrar akkreditasiya qiymətləndirilməsi planlaşdırılır. Yenidən planlaşdırılan qiymətləndirmənin müddəti/həcmi dayandırılmış qiymətləndirmə zamanı uğurla tamamlanan hissələr nəzərə alınmaqla azaldıla bilər. Təkrar akkreditasiya zamanı qiymətləndirmə cari akkreditasiya attestatının müddətinin bitmə tarixinə qədər yekunlaşmasa, cari akkreditasiya attestatının bitmə tarixi ilə təkrar akkreditasiya qiymətləndirməsinin yekun qərarı arasındakı dövrdə UQQ AzAK nişanından istifadə edərək uyğunluğun qiymətləndirilməsi fəaliyyəti ilə məşğul ola bilməz. Qiymətləndirmənin uğurla başa çatdırılması üçün AzAK-ın zəruri hesab etdiyi hallarda qiymətləndirmə planında düzəliş edilməsi zərurəti yaranarsa, bu barədə UQQ-yə məlumat verilir və plan UQQ ilə razılaşdırılır.

#### 4.3.4. Qiymətləndirmə hesabatı

Qiymətləndirmənin nəticəsinə dair hesabat (AzAK F005-26, AzAK F005-27, AzAK F005-28, AzAK F005-29, AzAK F005-30) tərtib edildiyi gündən 5 (beş) iş günü müddətində UQQ-yə təqdim edilir.

Qiymətləndirmə komissiyası akkreditasiya qərarı ilə bağlı yazılı və ya şifahi öhdəlik götürə bilməz. Qiymətləndirmə komissiyası qiymətləndirmə ilə bağlı sənədlərdə UQQ-nin akkreditasiyası ilə bağlı tövsiyə verir, lakin bu tövsiyə AzAK-ın qərar qəbulu üçün əsas deyil.

Qiymətləndirmə prosesi zamanı yaradılmış bütün qeydlər (məsələn, qiymətləndirmə hesabatı, uyğunsuzluqlar, düzəldici fəaliyyət sübutları və s.) qiymətləndirmə komissiyası tərəfindən toplanır kuratora təqdim edilir. Kurator sənədləri qərarverici heyətə təhvil verir.

#### 4.3.5. Düzəldici fəaliyyətlər

UQQ-yə qiymətləndirmə hesabatında nəzərdə tutulmuş uyğunsuzluqları aradan qaldırması üçün verilmiş müddət 3 (üç) aydan çox ola bilməz. UQQ düzəliş tədbirlərini icra etməsi barədə məlumatı sübutlarla birgə AzAK-a təqdim etdikdə 3 (üç) iş günü ərzində müddətin axımının bərpa olunması haqqında qərar qəbul edilir və bu barədə dərhal UQQ-yə məlumat verilir. Düzəliş tədbirləri barədə məlumat, həmçinin AzAK F005-25 formasına da daxil edilməlidir. Düzəliş tədbirlərinin yerinə yetirilməsi əsasən komissiya tərəfindən yerində yoxlanılır və yoxlama nəticələrinə dair məlumat AzAK F005-25 formasına daxil edilir. Uyğunsuzluqların aradan qaldırılması üçün verilmiş müddət (3 (üç) aydan çox olmayan) ərzində UQQ-nin təqdim etdiyi məlumatlar əsasında müddət axımının dayandırılması və bərpası barədə birdən çox qərar qəbul edilə bilər.

Qapanış iclasında UQQ-yə bildirilən tapıntılarla qiymətləndirmə hesabatlarında qeyd olunmuş tapıntılar arasında fərq olarsa, bu barədə UQQ-yə əsaslandırılmış yazılı məlumat verilir.

### 4.4. İzləmə qiymətləndirməsi

İzləmə qiymətləndirməsi AzAK-ın zəruri bildiyi hallarda əsasən uyğunsuzluqlarla bağlı həyata keçirdiyi qiymətləndirmədir.

İzləmə qiymətləndirməsi ilkin akkreditasiya qiymətləndirməsi kimi planlaşdırılır, lakin planın həcmi izləmə qiymətləndirməsinin keçirilmə səbəbinə uyğun olaraq məhdudlaşdırılmış olur. İzləmə qiymətləndirməsi UQQ-nin düzəldici fəaliyyətlərini həyata keçirməsi barədə məlumat verməsindən sonra planlaşdırılır və həyata keçirilir.

UQQ-nin akkreditasiya attestatının qüvvədə olma müddəti qismən və ya tamamilə dayandırılıbsa, dayandırma səbəbinin aradan qaldırıldığının müəyyən edilməsi məqsədilə və ya AzAK-ın zəruri hesab etdiyi digər hallarda həyata keçirilən qiymətləndirmələr də izləmə qiymətləndirməsi hesab edilir. Şikayət olduğu hallarda və ya AzAK-ın zəruri hesab etdiyi digər hallarda həyata keçirilən proqramda nəzərdə tutulmayan qiymətləndirmələr plandankənar qiymətləndirmələr hesab edilir.

UQQ-nin akkreditasiya üçün əhəmiyyəti olan dəyişikliklərə görə (məsələn, hüquqi, kommersiya, mülkiyyət və ya təşkilati formasının, təşkilati strukturu, rəhbər orqanlarının üzvləri və əsas işçilərinin, resurslarının, yerlərinin, akkreditasiya sahəsinin dəyişməsi) akkreditasiya attestatının qüvvədə olma müddəti qismən və ya tamamilə dayandırılıbsa, dayandırma səbəbinin aradan qaldırıldığının müəyyən edilməsi məqsədilə həyata keçirilən izləmə qiymətləndirmənin nəticəsi qənaətbəxş olarsa, komissiyanın sədri qiymətləndirmə nəticələrinə dair hesabatı hazırlayır, hesabat və digər məlumatlar komissiya sədrinin tövsiyəsi və kuratorun təklifi ilə akkreditasiya barədə qərarverici heyətə təqdim edilir və qısa müddət ərzində akkreditasiya attestatının qüvvədə olma müddəti bərpa edilir. Qiymətləndirmə nəticəsində UQQ-nin akkreditasiya tələblərinə cavab vermədiyi müəyyən edilərsə, və ya hər hansı sahə üzrə qiymətləndirmə nəticəsi qənaətbəxş olmazsa, bu prosedur əsasında uyğunsuzluğun xarakterindən asılı olaraq, akkreditasiya sahəsinin məhdudlaşdırılması və ya attestatın ləğv edilməsi ilə bağlı lazımi hesabatlar hazırlanır və qərarlar verilir.

İzləmə qiymətləndirməsi adətən tətbiq edilmiş düzəldici fəaliyyətlərin yoxlanması məqsədilə həyata keçirilir. Lakin izləmə qiymətləndirməsi aşağıda sadalanan və ya bunlara bənzər səbəblərlə də həyata keçirilə bilər:

- Qiymətləndirmə nəticəsində UQQ-nin səriştəliliyi barədə tam təəssürat yaratmaq mümkün olmayıbsa, yeni sübutlar əldə etmək məqsədilə;
- Bir səriştəlilik sınağı və ya laboratoriyalararası müqayisə ölçmələrində qənaətbəxş olmayan nəticələr alındığı halda (laboratoriyalar və inspeksiya orqanları üçün);
- İllik və ya plandankənar qiymətləndirmə zamanı UQQ-nin akkreditasiya attestatı qismən və ya tam dayandırılıbsa, dayandırma səbəbinin aradan qaldırılıb-qaldırılmadığını müəyyən etmək üçün.

İlkin akkreditasiya qiymətləndirməsindən sonra həyata keçirilən izləmə qiymətləndirməsi nəticəsində uyğunsuzluqların aradan qaldırılmadığı aşkar edilərsə, qiymətləndirmə komissiyasının rəyi əsasında uyğunsuzluqların aşkar edildiyi sahə üzrə və ya bütün sahə üzrə qiymətləndirmə nəticələrinə əsasən UQQ-nin müvafiq akkreditasiya tələblərinə uyğun olmadığı sənədləşdirilir, akkreditasiyadan imtina prosesinə başlanılır.

İzləmə qiymətləndirməsi illik və ya plandankənar qiymətləndirmə zamanı aşkar edilmiş tapıntılar əsasında həyata keçirilibsə və uyğunsuzluqların aradan qaldırılmadığı aşkar edilərsə, AzAK-ın prosedurlarına əsasən uyğunsuzluğun xarakterindən asılı olaraq, akkreditasiya sahəsinin uyğunsuzluqların aşkar edildiyi sahə üzrə məhdudlaşdırılması və ya akkreditasiya attestatının ləğvi ilə bağlı fəaliyyət həyata keçirilir.

## 4.5. Akkreditasiya qərarı

Qiymətləndirmələrin nəticələri əsasında, UQQ-nin fəaliyyətində əhəmiyyəti

dəyişikliklərlə bağlı müraciətinin araşdırılmasının nəticəsində qərar qəbul etmə zərurəti yarandığı halda AzAK tərəfindən qərarlar qəbul olunur.

Qiymətləndirmə komissiyası akkreditasiya qiymətləndirməsi ilə bağlı son nəticələri və akkreditasiya attestatının verilməsi və ya verilməsindən imtina barədə təklifini AzAK-a təqdim etməsindən sonra kurator akkreditasiya prosesinin nəticələrinə dair hesabatları və əlavə sənəd və qeydlər də daxil olmaqla bütün məlumatları nəzərdən keçirir və qərarın qəbulu üçün lazımi hazırlıqlara başlayır və həmin sənədləri qovluqda akkreditasiya üzrə müvafiq şöbənin müdirinə təqdim edir.

Akkreditasiya üzrə qərarverici heyətin bir üzvü olan müvafiq akkreditasiya şöbəsinin müdiri hazır məlumatları (qiymətləndirmə hesabatlarının məzmunu, uyğunsuzluq aşkar edildiyi hallarda düzəldici fəaliyyətlərə bağlı təqdim edilmiş qeydlərin kifayət etməsini, akkreditasiya sahəsinin uyğun olub-olmamasını, qiymətləndirmə qeydlərinin adekvatlığını və s.) təhlil edir və qeydlərini AzAK F005-11 formasına daxil edir. Akkreditasiya üzrə şöbənin müdiri adıçəkilən qiymətləndirmə zamanı qiymətləndirmə komissiyasının üzvü kimi iştirak edibsə, akkreditasiya qərarından əvvəl həyata keçirilməli olan təhlili şöbə daxilində şəriştəsi uyğun olan şəxsə və ya akkreditasiya üzrə digər şöbənin müdirinə həvalə edə bilər.

Kurator AzAK F005-11 forması da daxil olmaqla akkreditasiya prosesi ilə bağlı bütün məlumatları qovluqda yerləşdirir və akkreditasiya üzrə qərarverici heyətə təqdim edir. Qərarverici heyət təqdim edilmiş məlumatları nəzərdən keçirir, məlumatların (sənədlər, qeydlər və s.) qərar qəbulu üçün kifayət etməsini, qərar qəbulu üçün akkreditasiya nəticələrinin nəzərdən keçirilməsi formasının əsaslandırılmış məlumatlardan istifadə edilməklə formalaşdırıldığını təhlil edir.

Təqdim olunmuş məlumatlar qərar vermək üçün kifayət etmədikdə və ya məlumatlarda digər çatışmazlıqlar aşkar olunduqda qərarverici heyət akkreditasiya prosesi ilə bağlı qovluğu əsaslandırılmış rəyi ilə birgə kuratora geri qaytarır (AzAK F005-12). Kurator qovluğu qərarverici heyətin rəyi ilə bərabər müvafiq akkreditasiya şöbəsinin müdirinə təhvil verir. Akkreditasiya şöbəsinin müdiri qərarverici heyətin rəyində qeyd olunmuş çatışmazlığın aradan qaldırılması ilə bağlı kuratorun vasitəsilə qiymətləndirmə komissiyası ilə əlaqə yaradır və müvafiq müzakirələr aparılır. Nəticədə çatışmazlığı aradan qaldırmaq mümkün olmadıqda müddət axımını dayandırmaqla əlavə qiymətləndirmə planlaşdırıla bilər. Qiymətləndirmə növü müvafiq akkreditasiya şöbəsinin müdiri tərəfindən müəyyən edilir. Həyata keçirilmiş tədbirlərin nəticələri bu prosedurda göstərilmiş qaydalara uyğun sənədləşdirilir, müddət axımı bərpa olunur və məlumatlar qərar vermək üçün yenidən qərarverici heyətə təqdim olunur. Qərarverici heyət aşağıdakı qərarları qəbul edə bilər:

- Akkreditasiya attestatının verilməsi;
- Akkreditasiya attestatının verilməsindən imtina;
- Akkreditasiya sahəsində dəyişikliyin edilməsi;
- Akkreditasiya sahəsində dəyişikliyin edilməsindən imtina;
- Akkreditasiya attestatının qüvvədə olma müddətinin müvəqqəti dayandırılması (tam və ya qismən);
- Akkreditasiya attestatının qüvvədə olma müddətinin bərpası;
- Akkreditasiya sahəsinin məhdudlaşdırılması;
- Akkreditasiya attestatının ləğvi.

Müxtəlif akkreditasiya qərarlarına uyğun olaraq akkreditasiya qərarından əvvəl hansı hallarda təhlilin həyata keçiriləcəyi aşağıdakı kimi göstərilib:

- UQQ-nin müraciətinə əsasən verilmiş qərarlar istisna olmaqla, akkreditasiya attestatının qüvvədə olma müddətinin dayandırılması (tam və ya qismən),

akkreditasiya sahəsinin məhdudlaşdırılması, ikin akkreditasiya, təkrar akkreditasiya, akkreditasiya sahəsində dəyişiklik, akkreditasiya attestatının qüvvədə olma müddətinin bərpa edilməsi, attestatın ləğvi qərarlarından əvvəl qiymətləndirmə nəticələrinə dair bütün məlumatlar təhlil edilir, zərurət yarandığı halda akkreditasiya barədə hesabatlar qərarverici heyətə qərar qəbulu üçün təqdim edilməzdən əvvəl texniki ekspertlər tərəfindən baxılır, təhlil edilir və sonda yekdilliklə qərar qəbul edilir.

- Yekdilliklə qərar qəbul etmək mümkün olmadıqda digər akkreditasiya şöbəsinin müdiri və ya müvafiq sahə üzrə qiymətləndirici, baş qiymətləndirici səriştəsinə malik olan əməkdaş qərarverici heyətə daxil edilir və 5 iş günü ərzində qərarverici heyət yenidən toplanıb vəziyyəti təhlil edir və səs çoxluğu əsasında qərar qəbul edir. Üzvlər bitərəf qala bilməzlər;
- İllik qiymətləndirmənin nəticələrinə əsasən UQQ-yə fəaliyyətinin akkreditasiya tələblərinə uyğunluğunun qənaətbəxş olması barədə məktub təqdim edilir;
- UQQ-nin istəyi ilə akkreditasiya sahəsinin məhdudlaşdırılması, akkreditasiya attestatının qüvvədə olma müddətinin dayandırılması, ləğvi (geri çağrılması), ünvan dəyişikliyi, akkreditasiya sahəsində orfoqrafik dəyişikliklər olduğu hallarda qiymətləndirməyə ehtiyac olmadığından kurator qərar verilməsi üçün təklif hazırlayır. Qərarlar direktor tərəfindən təsdiqlənir.

Qərarverici heyət üzvünün üzrlü səbəbdən iştirak edə bilmədiyi hallarda (digər vəzifəyə təyin olunması, icazəli olması və s.) həmin üzvün əvəzinə digər akkreditasiya şöbəsinin müdiri, direktorun müavini və ya direktor və ya müvafiq sahə üzrə qiymətləndirici, baş qiymətləndirici səriştəsinə malik olan personal rəhbərlik tərəfindən qərar qəbulu üzrə heyətə üzv təyin edilə bilər. Qərarverici heyət üzvlərindən birinin direktor müavini və ya direktor olması vacib şərtdir.

Direktor rəsmi olaraq işdə olmadığı təqdirdə bu səlahiyyətini qərar vermə səlahiyyətinə malik olan digər AzAK əməkdaşına verə bilər.

Akkreditasiya qərarları hər hansı qiymətləndirmə həyata keçirildikdən sonra qəbul edilməlidir. Lakin yuxarıda qeyd olunan hallarda, məsələn, UQQ-nin istəyi ilə attestatın ləğvi, sahənin məhdudlaşdırılması, müqavilənin imzalanmaması, ödəniş etməməsi və s. bu kimi hallarda qiymətləndirmə həyata keçirilmədən qərar qəbul edilə bilər.

Akkreditasiya barədə qərar qəbul edildikdən sonra attestat tərtib edildiyi gün UQQ barədə məlumatlar akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumların reyestrinə daxil edilir və akkreditasiya olunmuş UQQ barədə məlumatlar və UQQ-nin akkreditasiya sahəsi AzAK-ın rəsmi internet səhifəsində əks olunur.

Akkreditasiya üçün müraciət etmiş UQQ akkreditasiya qaydalarının pozulmasından, o cümlədən akkreditasiya orqanının akkreditasiyadan imtina barədə qərarından (hərəkətsizliyindən) AzAK P010 “Şikayətlər və apellyasiya şikayətləri proseduru”na əsasən şikayət edə bilər.

#### 4.5.1. Akkreditasiya attestatının hazırlanması

AzAK akkreditasiya qərarı əsasında 2 (iki) gün müddətində akkreditasiya attestatı hazırlanır, imzalanaraq möhürlənir, UQQ-nin akkreditasiya sahəsi, əsasnaməsi təsdiq edilir və akkreditasiya nişanı hazırlanır.

Akkreditasiya üzrə şöbələr təsdiq edilmiş akkreditasiya attestatını, akkreditasiya sahəsini, əsasnamənin bir nüsxəsini, attestatın verilməsi barədə qərarın surətini və akkreditasiya nişanını müşayiət məktubu ilə birgə Reyestr və məlumatların təhlili sektoruna

təqdim edirlər (kalibrləmə laboratoriyalarına əlavə kalibrləmə müqaviləsi (AzAK F005-32) də təqdim olunur). Adıçəkilən sənədlər Reyestr və məlumatların təhlili sektoru tərəfindən 2 (iki) iş günü müddətində UQQ-yə təqdim edilir və bununla bağlı müvafiq qeydlər aparılır. Akkreditasiya üzrə şöbələr bundan əlavə akkreditasiya attestatının surəti da daxil olmaqla akkreditasiya prosesi ilə bağlı sənədləri bir daha nəzərdən keçirərək AzAK F005-31 formasını doldurur və müvafiq qovluğu hazırlayaraq Reyestr və məlumatların təhlili sektoruna təhvil verirlər.

Akkreditasiya attestatında attestatın verilmə tarixi kimi ilkin akkreditasiya barədə qərarın tarixi göstərilir. Təkrar akkreditasiya istisna olmaqla, akkreditasiya attestatının yenilənməsi zamanı attestatın qüvvədən düşmə tarixi dəyişmir.

UQQ akkreditasiya attestatı və/və ya akkreditasiya sahəsinin digər xarici dillərə tərcüməsini tələb etdiyi halda o, AzAK tərəfindən ona təqdim edilmiş akkreditasiya attestatının və akkreditasiya sahəsinin digər dillərə tərcüməsini notarial qayada təsdiq etdirə bilər.

Bütün maraqlı tərəflər üçün akkreditasiya attestatının və/və ya akkreditasiya sahəsinin Azərbaycan dilində olan variantı əsas, digər dildə olan variantı isə tərcümə kimi qəbul olunacaq.

## 4.6. Akkreditasiya tsikli

İlkin akkreditasiya tsikli akkreditasiya attestatının verilməsi barədə qərarın tarixi ilə başlayır. Akkreditasiya attestatı verildiyi tarixdən 3 (üç) il müddətində etibarlıdır. Təkrar akkreditasiya barədə qərardan sonra verilən attestatın da qüvvədə olma müddəti 3 (üç) ildir.

### 4.6.1. Plandankənar qiymətləndirmə

Plandankənar qiymətləndirmə aşağıdakı hallarda həyata keçirilə bilər:

- UQQ-nin idarəetmə sisteminin sənədlərinin yenilənməsinin yoxlanması;
- AzAK-da aparılan daxili auditin nəticələrinə əsasən UQQ-nin akkreditasiya qiymətləndirilməsi zamanı yol verilmiş nöqsanların aşkarlanması;
- Şikayətlər, apellyasiyalar;
- Maraq toqquşması ilə bağlı təhlillər;
- Qərəzsizliyin idarəedilməsi;
- Düzəldici fəaliyyətlər üçün UQQ-nin öhdəlik götürməsi (əvvəlki qiymətləndirmə zamanı və ya UQQ-nin daxili auditi zamanı aşkar edilmiş uyğunsuzluqlarla bağlı həyata keçirilən tədbirlərin sübut olunması məqsədi ilə UQQ tərəfindən qəbul edilən vaxt öhdəliyi);
- Personalın səriştəsi;
- UQQ-nin hüquqi statusu və ya təşkilati strukturu ilə bağlı dəyişiklik olduğu halda;
- UQQ-nin həyata keçirdiyi fəaliyyətlə bağlı qeydlər;
- Akkreditasiya proqramında nəzərdə tutulmuş fəaliyyətlərin bir qismi üçün şahid qiymətləndirməsinin təşkili;
- Laboratoriya və inspeksiya qurumları üçün:
    - Səriştəlilik sınaqları və laboratoriyalar arası müqayisə proqramlarında iştirakla bağlı sənəd və qeydlər;
    - Ölçmə vasitələri və istinad materiallarının kalibrlənməsi və milli/beynəlxalq izlənilməsi;
    - Metodlar, metodlarda dəyişikliklər, ölçmə-validasiya ilə bağlı qeydlər.

Hər bir UQQ üçün akkreditasiya tsiklini əhatə edən akkreditasiya proqramı hazırlanır

(AzAK F005-34). Akkreditasiya proqramı hazırlanan zaman UQQ-nin idarəetmə sistemi, həyata keçirdiyi fəaliyyətlərlə bağlı əldə edilən məlumatlar nəzərə alınır. Akkreditasiya proqramı ilkin akkreditasiya barədə qərardan sonra hazırlanır, proqramda nəzərdə tutulmuş hər qiymətləndirmədən əvvəl, sonra və digər lazımi hallarda yenilənir.

Akkreditasiya edilmiş qurumun akkreditasiya proqramına əsasən akkreditasiya tsikli başladığı tarixdən etibarən on iki ayda (əvvəlki akkreditasiya tsiklində fövqəladə vəziyyətlər və s. səbəblərdən dəyişiklik olduqda, əvvəlki akkreditasiya tsiklindəki tarixdən etibarən on iki ayda) bir dəfə olmaqla akkreditasiya tsikli ərzində iki dəfə illik qiymətləndirmə həyata keçirilir. Qiymətləndirmələr arasında müddət iki ildən artıq olmamalıdır.

Bir akkreditasiya tsikli ərzində iki illik qiymətləndirmə nəzərdə tutulur, lakin aşağıdakı hallarda qiymətləndirmə sayı artırıla bilər:

- Akkreditasiya sahəsinin genişləndirilməsi ilə bağlı müraciət, şikayət, UQQ-nin fəaliyyət sahəsi ilə bağlı qaydalar, standartlarda dəyişikliklər, attestatın qüvvədə olma müddətinin dayandırılması və s.;
- Akkreditasiya proqramı və müvafiq akkreditasiya sxemlərinin tələbi ilə;
- Şahid qiymətləndirmələrini ofis qiymətləndirməsi ilə bir vaxtda aparmaq mümkün olmadıqda (burada şahid qiymətləndirilməsi UQQ-yə edilmiş müraciət zamanı baş verməlidir. UQQ belə müraciəti gec aldığı təqdirdə ofis qiymətləndirməsi ilə şahid qiymətləndirmələri müxtəlif vaxtlarda həyata keçirilir).

Mümkün olduqda şahid qiymətləndirmələri illik qiymətləndirmə və təkrar akkreditasiya qiymətləndirmələri ilə birlikdə həyata keçirilir. Qeyd olunan şəraitdə şahid qiymətləndirməsini həyata keçirmək mümkün olmadıqda akkreditasiya proqramına uyğun olaraq müvafiq qiymətləndirmədən əvvəl və ya sonra da həyata keçirilə bilər.

Akkreditasiya proqramı (illik qiymətləndirmə və təkrar akkreditasiya daxil olmaqla) idarəetmə sistemi ilə birlikdə akkreditasiya sahəsində əks etdirilmiş bütün sahələri əhatə edəcək şəkildə hazırlanmalıdır. İllik qiymətləndirmə zamanı idarəetmə sisteminin elementlərindən ən azı daxili audit, rəhbərlik tərəfindən təhlil və düzəldici fəaliyyətlərin yoxlanması nəzərdə tutulur.

UQQ-nin önəmli fəaliyyətlər icra etdiyi yerlər risk əsaslı yanaşma çərçivəsində seçilir və ilkin akkreditasiya qiymətləndirməsinə əlavə olaraq hər akkreditasiya tsikli ərzində ən az bir dəfə qiymətləndirilir. Digər fəaliyyətlərin icra edildiyi yerlər də risk dəyərləndirməsi nəticələrinə əsasən seçilir və qiymətləndirilir.

Akkreditasiya olunmuş UQQ sifarişçi olmaması səbəbindən hər hansı bir sahə üzrə fəaliyyət göstərməsə belə, həmin faəliyyət sahəsində də akkreditasiya tələblərinə cavab verməli və səriştəsinin davamlı olduğuna dair sübutları AzAK-a təqdim etməlidir. UQQ səriştəsinə dair sübutları simulativ fəaliyyətlər yaratmaqla və onu şahid qiymətləndirilməsinə cəlb etməklə təmin edə bilər.

İllik qiymətləndirmə akkreditasiya tsikl proqramına əsasən planlaşdırılır, həyata keçirilir və sonda hesabat hazırlanır. İllik qiymətləndirmədən əvvəl AzAK F005-33 forması (laboratoriyalar üçün) UQQ tərəfindən əvvəlki ilin məlumatlarını özündə ehtiva edəcək formada doldurulur və qiymətləndirmədən ən azı 1(bir) ay əvvəl AzAK-a təqdim olunur. Təqdim olunmuş formadakı məlumatlar əsasında risk əsaslı yanaşma tətbiq etməklə akkreditasiya tsikl proqramına dəyişiklik edilir. Bu dəyişiklik illik qiymətləndirmənin planı hazırlanarkən nəzərə alınmalıdır.

İllik qiymətləndirmə zamanı akkreditasiya prosesinin davam etdirilməsinə maneə ola biləcək uyğunsuzluq aşkar edilərsə, qiymətləndirmə komissiyası aşkar edilən uyğunsuzluğu dərhal AzAK F005-23 formasına qeyd edərək AzAK-a təqdim edir. Komissiyanın sədrinin tövsiyəsi və kuratorun təklifi ilə sənəd toplusu dərhal qərarverici heyətə təqdim edilir.

Uyğunsuzluğun aradan qaldırılmasının müəyyən edilməsi məqsədilə izlənmə qiymətləndirməsi həyata keçirilə bilər.

Kurator qiymətləndirmə komissiyası tərəfindən hazırlanmış hesabatı, qiymətləndirməyə dair qeydləri də əlavə edib, tamamlanmış sənəd toplusunu qərarverici heyətə təqdim edir.

UQQ-nin akkreditasiya tələblərinə cavab vermədiyi aşkar edildikdə, AzAK tərəfindən akkreditasiya attestatının qüvvəsinin müvəqqəti dayandırılması (tam və ya qismən) barədə qərar qəbul edilir və bu barədə UQQ-yə məlumat verilir.

Uyğunsuzluqların göstərilən müddətdə aradan qaldırılmaması, uyğunsuzluğun xarakterindən asılı olaraq, akkreditasiya sahəsinin məhdudlaşdırılması və ya akkreditasiya attestatının ləğvi üçün əsasdır.

İllik qiymətləndirmə akkreditasiya proqramında qeyd edilmiş tarixdən etibarən ±2 ay ərzində başlamalı, 6 (altı) ay ərzində yekunlaşdırılmalı, nəticələr əsasında qərar verilməlidir.

4.6.2. Təkrar akkreditasiya

AzAK Akkreditasiya attestatının müddətinin bitməsinə 8 ay qalmış UQQ-yə akkreditasiya attestatının müddətinin bitməsinə dair xəbərdarlıq göndərməklə, onun akkreditasiyasının fasiləsiz davam etməsi üçün təkrar akkreditasiya edilməsini təşviq edir. Təkrar akkreditasiya zamanı qiymətləndirmə cari akkreditasiya attestatının müddətinin bitmə tarixinə qədər yekunlaşmasa, cari akkreditasiya attestatının bitmə tarixi ilə təkrar akkreditasiya qiymətləndirməsinin yekun qərarı arasındakı dövrdə UQQ AzAK nişanından istifadə edərək uyğunluğun qiymətləndirilməsi fəaliyyəti ilə məşğul ola bilməz. UQQ akkreditasiya attestatının müddətinin bitməsindən sonra təkrar akkreditasiya üçün müraciət edərsə, bu mürciətə ilkin müraciət kimi baxılacaqdır.

UQQ təkrar akkreditasiya üçün gec müraciət edərsə (akkreditasiya attestatının qüvvədə olma müddətinin başa çatmasına 1 (bir) aydan az qalarsa, və ya təkrar akkreditasiyanın müəyyən edilmiş müddət ərzində həyata keçirilməsi UQQ-yə görə gecikərsə, və ya həyata keçirilməzsə, təkrar akkreditasiyanın həyata keçirilməməsi səbəbindən akkreditasiya attestatı yenilənmir, akkreditasiya attestatının qüvvədə olma müddəti bitir. Bu halda UQQ təkrar akkreditasiya olunmaq üçün deyil, ilkin akkreditasiya üçün müraciət etməlidir.

Təkrar akkreditasiya ilkin akkreditasiya kimi planlaşdırılır, həyata keçirilir, sənədləşdirilir.

Təkrar akkreditasiya üçün plan hazırlanan zaman UQQ-nin bütün akkreditasiya sahəsini əhatə edəcək şəkildə işçi heyəti və digər resursları təhlil edilir və akkreditasiya sahəsindəki fəaliyyətlərə uyğun olaraq qiymətləndirmə komissiyası yaradılır. Bu zaman əvvəlki akkreditasiya tsiklində qiymətləndirilməmiş fəaliyyət sahələri, yerləşmə yerləri, həyata keçirilmiş qiymətləndirmələrlə bağlı qeydlər risk əsaslı yanaşma çərçivəsində nümunə seçmə üsulu ilə seçilmiş digər sahələr və yerləşmə yerləri qiymətləndirilir.

UQQ-nin təkrar akkreditasiya barədə müraciətinə bu prosedura uyğun baxılır və qiymətləndirmənin müsbət nəticələri əsasında yeni akkreditasiya attestatı verilir.

Təkrar akkreditasiya ilə bağlı qərarda akkreditasiya attestatının qüvvədə olma müddəti qərarın verildiyi tarixdən başlayaraq 3 (üç) il müddətinə müəyyən edilir. Təkrar akkreditasiya barədə qərarın qəbulu müəyyən müddətə gecikərsə, bu akkreditasiya attestatının daha uzun müddət müəyyən ediləcəyi kimi başa düşülməməlidir.

Təkrar akkreditasiya istisna olmaqla akkreditasiya attestatının yenidən hazırlandığı digər hallarda akkreditasiya attestatının qüvvədə olduğu müddət dəyişdirilmir.

UQQ təkrar akkreditasiya üçün müraciət etmədiyi halda akkreditasiya tsiklinin bitməsinə 1 (bir) ay qalmış kurator UQQ-nin təkrar akkreditasiya üçün müraciət etmədiyini əsas gətirməklə UQQ ilə bağlı sənədləri bir daha nəzərdən keçirərək qovluğu hazırlayır və akkreditasiya tsikli bitdikdə qovluğu saxlanmaq üçün müvafiq struktur bölməyə təhvil verir.

4.7. Akkreditasiya attestatının qüvvədə olma müddətinin qismən və ya tamamilə dayandırılması, ləğv edilməsi (geri çağrılması) və akkreditasiya sahəsində dəyişiklik.

4.7.1. UQQ-nin müraciətinə əsasən akkreditasiya attestatının qüvvədə olma müddətinin qismən və ya tamamilə dayandırılması, ləğv edilməsi (geri çağrılması) və akkreditasiya sahəsinin məhdudlaşdırılması.

Akkreditasiya edilmiş UQQ akkreditasiya attestatının qüvvədə olma müddətinin qismən və ya tamamilə dayandırılması, ləğv edilməsi (geri çağrılması) və akkreditasiya sahəsinin məhdudlaşdırılması ilə bağlı AzAK-a müraciət edə bilər. Müraciət qeydiyyata alındıqdan sonra akkreditasiya üzrə müvafiq şöbənin müdiri tərəfindən müvafiq kuratora yönəldilir, kurator müraciətə uyğun olaraq qərar layihəsini hazırlayıb təsdiq üçün direktora təqdim edir.

4.7.2. Akkreditasiya edilmiş UQQ-nin akkreditasiya attestatının AzAK tərəfindən qüvvədə olma müddətinin qismən və ya tamamilə dayandırılması, ləğv edilməsi (geri çəkilməsi) və akkreditasiya sahəsinin məhdudlaşdırılması.

4.7.2.1. İllik və plandankənar qiymətləndirmələr zamanı akkreditasiya edilmiş UQQ-nin akkreditasiya tələblərinə cavab vermədiyi aşkar edildikdə AzAK tərəfindən akkreditasiya attestatının qüvvəsinin müvəqqəti olaraq qismən və ya tamamilə dayandırılması barədə qərar qəbul edilir.

4.7.2.2. Akkreditasiya attestatının ləğvi (geri çağırılması)

Aşağıdakı hallarda UQQ-nin akkreditasiya attestatı ləğv edilir:

1. Attestatın qüvvədə olma müddətinin dayandırılmasına səbəb olan halların müəyyən edilmiş müddət ərzində aradan qaldırılmaması və ya düzəldici fəaliyyətlərin kifayət olmaması;
2. UQQ-nin uyğunluğun qiymətləndirilməsi fəaliyyətləri zamanı saxtakarlıq etdiyinə dair obyektiv sübutların aşkar edilməsi;
3. UQQ-nin AzAK-a qəsdən yanlış məlumat verməsi, qəsdən məlumatları gizləməsi və ya qeyri-real qeyd və ya sübut təqdim etməsi;
4. Akkreditasiya müqaviləsinin şərtlərinin yerinə yetirilməməsi və ya müqavilənin ləğv edilməsi.

4.7.3. Qərar qəbulu və məlumatlandırma

UQQ-nin müraciətinə əsasən qəbul edilmiş qərarlar istisna olmaqla akkreditasiya attestatının qüvvədə olma müddətinin qismən və ya tamamilə dayandırılması, ləğvi (geri çağrılması), sahənin məhdudlaşdırılması ilə bağlı qərarlar qərarverici heyət tərəfindən qəbul edilir.

Kurator UQQ-ni qəbul edilən qərar barədə məlumatlandırır və qərarın surətini UQQ-nin ünvanına göndərir. UQQ-nin qərarda nəzərdə tutulan tələbləri yerinə yetirməsi üçün öhdəliyi qərarın UQQ tərəfindən qəbul edilməsi ilə başlayır. Qərarın qəbul edilməsi barədə təsdiq alınmadığı halda öhdəlik qərarın UQQ-yə poçtla göndərildiyi tarixdən başlayır. Əgər qərar tarixindən öhdəlik yaranan tarixə qədər olan müddət ərzində akkreditasiya nişanlı sənəd verilibsə, bu sənədlər akkreditasiya sahəsində olmadığından UQQ tərəfindən geri çağrılmalıdır.

Qərarverici heyətin qərarının tarixi (forma AzAK F005-12) akkreditasiya attestatının qüvvədə olma müddətinin qismən və ya tamamilə dayandırılması, ləğvi (geri çağrılması) barədə

qərarın tarixi kimi götürülür.

Qərar tarixindən etibarən UQQ qüvvədə olma müddəti qismən və ya tamamilə dayandırılmış, ləğv edilmiş (geri çağrılmış), məhdudlaşdırılmış sahə üzrə hesabat, sertifikat və reklam sənədlərində AzAK akkreditasiya nişanından istifadə edə bilməz və akkreditasiyaya istinad edə bilməz.

Akkreditasiyanın geri çağrılması barədə məlumatlandırılmış UQQ akkreditasiya attestatını AzAK-a geri qaytarmalıdır (mümkün olduqda).

Akkreditasiya attestatının qüvvədə olma müddətinin qismən və ya tamamilə dayandırılması, geri çağrılması, sahənin məhdudlaşdırılması tətbiq edilən UQQ, maraqlı tərəfləri (bu vəziyyətin təsir etdiyi müştəriləri) dərhal məlumatlandırmalıdır. Akkreditasiya attestatının qüvvədə olma müddətinin qismən və ya tamamilə dayandırılması, ləğv edilməsi (geri çağrılması), sahənin məhdudlaşdırılması səbəbindən qərar tarixinə qədər verilmiş sənəd və ya hesabatların geri çağrılması tələb oluna bilər.

Akkreditasiya attestatı geri çağrılmış və ya akkreditasiya sahəsi məhdudlaşdırılmış sertifikatlaşdırma orqanı bu sahədə sertifikatlaşdırma həyata keçiribsə, müştərilərini bu barədə dərhal məlumatlandırmalıdır. Bundan əlavə akkreditasiya attestatı geri çəkildikdə UQQ verdiyi sertifikatları geri çəkməli və bu fəaliyyətlə bağlı qeydlərini dərhal AzAK-a təqdim etməlidir.

Akkreditasiya sahəsinin bir qismi dayandırılmış UQQ ilə bağlı yenilənmiş məlumatlar AzAK-ın rəsmi internet səhifəsində yerləşdirilir. Akkreditasiya sahəsinin hamısı üzrə dayandırma qərarı verilibsə, UQQ-nin statusunda “dayandırılıb”, qismən dayandırma olduqda “qismən dayandırılıb”, ləğv edilmə (geri çağrılma) barədə qərar verildikdə və ya qüvvədə olma müddəti bitdikdə “qüvvədə deyil” şəklində yazılır.

Qismən dayandırılmış, geri çağrılmış, məhdudlaşdırılmış akkreditasiya sahələrinin son versiyaları AzAK-ın rəsmi internet səhifəsində yerləşdirilir. Qismən dayandırılmış akkreditasiya sahəsində qərarın şamil olunduğu fəaliyyət sahələri sahədən çıxarılmır, yalnız üzərindən xətt çəkilir. Akkreditasiya sahəsinin qismən dayandırılmasına səbəb olmuş hallar aradan qaldırdıqdan sonra üzərindən xətt şəkilmiş sahələr əvvəlki vəziyyətinə qaytarılır, yəni xətt silinir. Akkreditasiya sahəsi məhdudlaşdırıldıqda qərarın şamil olunduğu fəaliyyət sahələri akkreditasiya sahəsindən tamamilə çıxarılır. Sahədən çıxarılmış fəaliyyət sahələrini yenidən akkreditasiya sahəsinə daxil etmək üçün UQQ akkreditasiya sahəsində dəyişikliyin edilməsi (genişləndirilməsi) ilə bağlı bu prosedurun 4.7.5-ci bəndinə əsasən AzAK-a müraciət edə bilər.

#### 4.7.4. Akkreditasiya sahəsi qismən dayandırılmış UQQ-lərin müraciətləri.

Akkreditasiya sahəsi qismən dayandırılmış UQQ-lər akkreditasiya sahəsinin qismən dayandırılmasına səbəb olmuş halları aradan qaldırdıqdan sonra AzAK-a müraciət edə bilər.

#### 4.7.5. Akkreditasiya sahəsinin genişləndirilməsi və ya akkreditasiya sahəsində dəyişiklik

Akkreditasiya olunmuş bir UQQ mövcud akkreditasiya sahəsinin genişləndirilməsi ilə bağlı AzAK-a müraciət edə bilər. Bu halda UQQ-nin texniki sahədə səriştəsini yoxlamaq məqsədilə qiymətləndirmənin həyata keçirilməsi vacibdir.

Akkreditasiya sahəsinin genişləndirilməsi ilə bağlı müraciət ilkin akkreditasiya müraciəti formalarından istifadə etməklə edilir. Bu müraciət ilkin akkreditasiyaya dair müraciət kimi qiymətləndirilir. İlkin akkreditasiyadan fərqli olaraq akkreditasiya sahəsinin genişləndirilməsi ilə bağlı müraciətə yalnız yeni akkreditasiya sahəsinin layihəsi əlavə olunur. Akkreditasiya sahəsində dəyişiklik UQQ-nin əsas sənədlərində, personalında, ölçmə vasitələrinin sayında dəyişikliyə səbəb olubsa, həmin sənədlər də müraciətə əlavə olunaraq AzAK-a təqdim

edilməlidir.

Laboratoriyalar və inspeksiya orqanları üçün sahə genişləndirilməsi məqsədi ilə müraciət edilərsə və bu yeni sahə mövcud sahənin davamıdırsa, yəni UQQ-nin ölçmə səriştəsi ilə bağlı hər hansı əlavə metod və ya qabiliyyəti tələb olunmursa, yerində qiymətləndirməyə ehtiyac olmaya bilər. Bu halda UQQ tərəfindən təqdim edilən sənədlərin təhlili vasitəsilə sahə genişləndirilə bilər.

Yuxarıdakı abzasda qeyd edilən hallar istisna olmaqla digər sahələrdə genişləndirmə ilə bağlı müraciət AzAK, ILAC/IAF və ya akkreditasiya üzrə regional təşkilatların qaydalarına görə həyata keçirilir.

Mümkün olduğu halda akkreditasiya sahəsinin genişləndirilməsi ilə bağlı qiymətləndirmələr illik qiymətləndirmələrlə birlikdə həyata keçirilməlidir. Lakin akkreditasiya sahəsinin genişləndirilməsi ilə bağlı müraciət qiymətləndirmə ilə bağlı hesab-faktura UQQ-yə təqdim edildikdən sonra təqdim edilibsə, lakin hər iki fəaliyyət üçün ödəniş eyni zamanda edildiyi hal istisna olmaqla, bu iki qiymətləndirmə birlikdə həyata keçirilə bilməz. Belə hallarda sahə genişləndirilməsi ilə bağlı qiymətləndirmələr davam edən qiymətləndirmələr başa çatdıqdan sonra həyata keçirilir.

Sahə genişləndirilməsi ilə bağlı müraciət əsasında həyata keçiriləcək qiymətləndirmə bu prosedura əsasən planlaşdırılır və həyata keçirilir.

UQQ ilə bağlanmış müqavilə mövcud olduğuna görə sahə genişləndirilməsi ilə bağlı müraciət əsasında yalnız əlavə vəsaitin ödənilməsi ilə bağlı müqaviləyə əlavə imzalanmalıdır.

4.8. UQQ-nin fəaliyyətində əhəmiyyəti dəyişikliklər

UQQ fəaliyyətində dəyişiklik baş verdiyi hallarda müvafiq qərarın qəbul edilməsi üçün dərhal AzAK-ı məlumatlandırmalıdır.

UQQ dəyişikliklə bağlı məlumat verdiyi halda bu məlumatlar AzAK tərəfindən araşdırılır. Ehtiyac olduğu halda qiymətləndirmə (ofis və/və ya şahid qiymətləndirmələri əhatə edən yerində qiymətləndirmə, məsafədən (kameral) qiymətləndirmə, sənəd təhlili və s.) həyata keçirilə bilər. Qiymətləndirmə nəticələrinə görə mövcud dəyişikliklər UQQ-nin akkreditasiya olunmuş sahələrinə təsir edə bilən potensial risk kimi qəbul edilərsə, qismən və ya tamamilə dayandırma qərarı verilə bilər və ya digər tədbirlər həyata keçirilə bilər.

## 5. Digər məsələlər

UQQ ilə bağlı qeydlər əvvəlki akkreditasiya tsikli də daxil olmaqla mövcud akkreditasiya tsiklinin sonuna kimi saxlanılır.

## 6. Səlahiyyət və məsuliyyətlər

| Fəaliyyətlər | D | AŞ | KR | QK | UQQ |
|---|---|---|---|---|---|
| Müraciətin təqdim olunması | | M | M | | T |
| Kuratorun təyin olunması | Q | T | M | | M |
| Müraciətin araşdırılması | | M | T | | M |
| Müraciət və əlavələrin təhlili, müraciətin qəbulu | Q | Ə | Ə | | |
| Akkreditasiya müqaviləsinin imzalanması | T | M | Ə | | T |
| Akkreditasiyadan imtina barədə qərarın qəbulu | Q | Ə | T | | M |
| Qiymətləndirmə komissiyasının üzvləri barədə təklifin verilməsi, təyin edilməsi | Q | T | T | M | M |
| Sənəd və qeydlərin təhlili | | | Ə/M | T | M |

| | | | | | |
|---|---|---|---|---|---|
| Qiymətləndirmə planının hazırlanması | M | M | T | Ə | M |
| Qiymətləndirmənin həyata keçirilməsi | | M | Ə | T | Ə |
| Qiymətləndirmə hesabatının hazırlanması | | M | M | T | M |
| Düzəldici fəaliyyətlərin həyata keçirilməsi barədə məlumatların təqdim olunması | | | M | M | T |
| Düzəldici fəaliyyətlərin təhlili və izlənməsi | | | M | T | M |
| Akkreditasiya barədə qərarın hazırlanması | | Ə | T | Ə | |
| Akkreditasiya barədə qərarın qəbulu | Q | Q | Ə | | M |
| Akkreditasiya tsikli proqramının hazırlanması | | | T | Ə | Ə |
| Akkreditasiya attestatının imzalanması | T | M | Ə | | |
| Sənəd toplusunun müvafiq struktur bölməyə verilməsi | | M | T | | M |

D: Direktor
AŞ: Akkreditasiya üzrə şöbə
KR: Kurator
QK: Qiymətləndirmə komissiyası
UQQ: Uyğunluğu qiymətləndirən qurum
T: Tətbiq
Ə: Əməkdaşlıq
M: Məlumat
Q: Qərar

## 7. Arxiv və qeydlər

Qeydlər AzAK P002 “Qeydlərin idarəolunması proseduru”na uyğun olaraq saxlanılır.

## 8. Əlaqəli sənədlər

Bu prosedurla əlaqəli sənədlər AzAK L005-01 “AzAK P005 proseduru ilə əlaqəli sənədlərin siyahısı”nda verilmişdir.

## 9. Prosedurda edilmiş dəyişikliklər

| Dəyişiklik №si | Səhifə №si | Dəyişikliyin tarixi | Dəyişiklik səbəbi |
|---|---|---|---|
| 01 | Bütün | 19.10.2023 | Prosedur ISO/IEC 17011 standartına və AzAK-ın fəaliyyətinə uyğunlaşdırıldı |
| 02 | Bütün | 29.03.2024 | Prosedur AzAK-ın fəaliyyətinə uyğunlaşdırıldı, yeni formalar əlavə edildi |
| 03 | Bütün | 27.12.2024 | Prosedur AzAK-ın fəaliyyətinə və AzAK T005-05 təlimatına uyğunlaşdırıldı |
| | | | |
| | | | |
| | | | |
| | | | |

## Akkreditasiya prosesinin sxemi

